**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət
Komitəsi Əmr 155
«06» sentyabr 2000-cı il

# Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması QAYDALARI

1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1999-cu il tarixli 161 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında" Əsasnaməyə müvafiq olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar xarici emitentlərin qiymətli kağızlarının (bundan sonra – xarici qiymətli kağızlar) Azərbaycan Respublikasının ərazisində tədavülə buraxılması şərtlərini müəyyən edir.

2. Xarici qiymətli kağızların Azərbaycan Respublikasında tədavülə buraxılması

2.1. Xarici qiymətli kağızların emitenti və ya bu qiymətli kağızları Azərbaycan Respublikasının xaricində əldə etmiş şəxs (bundan sonra – xarici qiymətli kağızların sahibi) həmin qiymətli kağızları Azərbaycan Respublikasında tədavülə buraxmaq hüququnu Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsindən (bundan sonra - QKDK) "Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması haqqında" Şəhadətnaməni (Forma № 1) aldıqdan sonra əldə edir. "Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması haqqında" Şəhadətnamə xarici qiymətli kağızların Azərbaycan Respublikasının ərazisində tədavülə buraxılmasını təsdiq edən rəsmi sənəddir.

2.2. Xarici qiymətli kağızların emitenti, "Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması haqqında"

Şəhadətnaməni almaq üçün QKDK-ya aşağıdakı sənədləri təqdim etməlidir:
2.2.1. emitentin tam adı, hüquqi ünvanı və tədavülə buraxılan xarici qiymətli kağızların növü, forması (sənədləşdirilmiş və ya sənədləşdirilməmiş), sayı, nominal dəyəri (olduqda), ümumi məbləği, yerləşdirmənin nəzərdə tutulmuş müddəti, üsulu və dövriyyə etdiyi bazarlar (olduqda) haqqında məlumat göstərilməklə ərizə;

2.2.2. emitentin hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında müvafiq sənədin və nizamnamənin surətləri;

2.2.3. xarici qiymətli kağızların buraxıldığı ölkənin müvafiq dövlət orqanında qeydiyyata alınmasını təsdiq edən sənədin surəti (həmin ölkənin qanunvericiliyi ilə bu qiymətli kağızların qeydiyyata alınması tələb olunmadığı hallar istisna olmaqla);

2.2.4. emissiya prospekti və ya xarici qiymətli kağızların buraxılış şərtlərini açıqlayan hər hansı başqa sənədin surəti. Zəruri hallarda QKDK bu sənədin auditor tərəfindən təsdiq edilməsini tələb edə bilər;

2.2.5. emitentin son hesabat tarixinə auditor tərəfindən təsdiq edilmiş balansı (emissiya prospektində olmadığı halda);

2.2.6. xarici qiymətli kağız sənədləşdirilmiş formada olduqda, onun sertifikatının nümunəsi, sənədləşdirilməmiş formada olduqda, onun sahibliyini təsdiq edən müvafiq sənədi (surəti çıxarıldıqdan sonra geri qaytarılır);

2.3. Xarici qiymətli kağızların sahibi hüquqi şəxs olduqda, həmin şəxs "Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması haqqında" Şəhadətnaməni almaq üçün QKDK-ya aşağıdakı sənədləri təqdim etməlidir:

2.3.1. xarici qiymətli kagızların sahibinin tam adı, hüquqi ünvanı və tədavülə buraxılan xarici qiymətli kağızların növü, forması (sənədləşdirilmiş və ya sənədləşdirilməmiş), sayı, nominal dəyəri (olduqda), ümumi məbləği və dövriyyə etdiyi bazarlar haqqında məlumat göstərilməklə ərizə;

2.3.2. xarici qiymətli kağızların sahibinin hüquqi şəxs kimi dövlət qeydiyatına alınması haqqında şəhadətnamənin, həmçinin nizamnaməsinin surətləri;

2.3.3. xarici qiymətli kağız sənədləşdirilmiş formada olduqda, onun sertifikatının nümunəsi, sənədləşdirilməmiş formada olduqda, onun sahibliyini təsdiq edən müvafiq sənəd (surəti çıxarıldıqdan sonra geri qaytarılır);

2.4. Xarici qiymətli kağızların sahibi fiziki şəxs olduqda, həmin şəxs "Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması haqqında" Şəhadətnaməni almaq üçün QKDK-ya aşağıdakı sənədləri təqdim etməlidir:

2.4.1. xarici qiymətli kagızların sahibinin adı, soyadı, ünvanı və tədavülə buraxılan xarici qiymətli kağızların növü, forması (sənədləşdirilmiş və ya sənədləşdirilməmiş), sayı, nominal dəyəri (olduqda), ümumi məbləği və dövriyyə etdiyi bazarlar haqqında məlumat göstərilməklə ərizə;

2.4.2. xarici qiymətli kağız sənədləşdirilmiş formada olduqda, onun sertifikatının nümunəsi, sənədləşdirilməmiş formada olduqda, onun sahibliyini təsdiq edən müvafiq sənədi (surəti çıxarıldıqdan sonra geri qaytarılır);

2.4.3. şəxsiyətini təsdiq edən sənəd (surəti çıxarıldıqdan sonra geri qaytarılır).

2.5. Xarici qiymətli kağızların emitenti və ya sahibi adından müvəkkil olunmuş şəxs müraciyət etdikdə, müvəkkil olunmuş şəxs tələb olunan sənədlərdən əlavə xarici qiymətli kağızlarlın emitenti və ya sahibi tərəfindən onun adına verilmiş notarial qaydada təsdiq edilmiş etibarnaməni təqdim etməlidir.

2.6. Zəruri hallarda QKDK xarici qiymətli kağızların emitentinə və ya sahibinə və ya xarici qiymətli kağızlara aid olan əlavə sənədləri, o cümlədən yuxarıda göstərilmiş sənədlərin azərbaycan dilinə tərcüməsini xarici qiymətli kağızların emitentindən və ya sahibindən tələb edə bilər.

2.7. QKDK təqdim olunmuş sənədlərə qəbul edildiyi gündən 30 (otuz) iş günü ərzində baxır.

2.8. Təqdim olunmuş məlumatların düzgünlüyünü yoxlamaq məqsədi ilə QKDK emitent və ya xarici qiymətli kağızların sahibi, həmçinin xarici qiymətli kağızlar haqqında müvafiq sorğular göndərmək hüququna malikdir. Bu halda, sənədlərə baxılma müddəti sorğuya cavabın gəlməsi vaxtından hesablanır.

2.9. QKDK təqdim olunmuş sənədləri təhlil etdikdən sonra və imtina üçün əsas olmadıqda xarici qiymətli kağızların emitentinə və ya sahibinə "Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması haqqında" Şəhadətnaməni verir.

2.10. Xarici qiymətli kağızların Azərbaycan Respublikasının ərazisində tədavülə buraxılması haqqında onların emitenti və ya sahibi aşağıdakı məlumatları mərkəzi mətbuat orqanında dərc etdirməlidir və QKDK-nın İnternet səhifəsində yerləşdirməlidir:

2.10.1. xarici qiymətli kağızların emitenti və ya sahibi hüquqi şəxs olduqda - tam adı və hüquqi ünvanı; fiziki şəxs olduqda - adı, soyadı və ünvanı;

2.10.2. xarici qiymətli kağızların növü, forması, nominal dəyəri, sayı və ümumi məbləği;

2.10.3. xarici qiymətli kağızların yerləşdirilməsinin başlanma və başa çatma tarixi (olduqda);

2.10.4. xarici qiymətli kağızların emissiya prospekti ilə və ya qiymətli kağızların buraxılışını açıqlayan sənədlə (olduqda) tanış olmaq və onları almaq üçün ünvan və əlaqə telefonları.

2.11. Xarici qiymətli kağızların emitenti və ya sahibi onların yerləşdirilməsini bitirdikdən sonra 30 (otuz) iş günü ərzində QKDK-ya yerləşdirmənin nəticələri haqqında hesabatı təqdim etməlidir.

3. Xarici qiymətli kağızların Azərbaycan Respublikasında tədavülə buraxılmasına dair məhdudiyyətlər

3.1. Qiymətli kağızlar bazarının tənzimlənməsi məqsədi ilə QKDK Azərbaycan Respublikasında tədavülə buraxılacaq xarici qiymətli kağızların sayını məhdudlaşdırmaq və ya tədavülə buraxılmasından imtina etmək hüququna malikdir.

3.2. QKDK tərəfindən xarici qiymətli kağızların Azərbaycan Respublikasında tədavülə buraxılmasına imtina edildikdə xarici qiymətli kağızların emitentinə və ya sahibinə səbəbləri göstərilmədən yazılı surətdə məlumat verilir və təqdim olunmuş sənədlər geri qaytarılmır.

4. Xarici qiymətli kağızların Azərbaycan Respublikasında tədavülü

4.1. Azərbaycan Respublikasının ərazisində xarici qiymətli kağızların emitenti və ya sahibi həmin xarici qiymətli kağızlarla hər hansı əməliyyatları yalnız onlara QKDK tərəfindən " Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması haqqında" Şəhadətnamə verildikdən sonra apara bilər.

4.2. Xarici qiymətli kağızların ölkə ərazisində tədavülü onların növünə müvafiq olaraq Azərbaycan Respublikasının mövcud qanunvericiliyində

nəzərdə tutulmuş qaydada həyata keçirilir.

4.3. Azərbaycan Respublikasının ərazisində xarici qiymətli kağızların saxlanılması və onlar üzrə hüquqların uçotu QKDK-nın müvafiq lisenziyası əsasında fəaliyyət göstərən depozitariy vasitəsi ilə həyata keçirilməlidir.

4.4. QKDK Azərbaycan Respublikasının ərazisində xarici qiymətli kağızların tədavülü zamanı qanun pozuntuları aşkar etdikdə və ya qiymətli kagızlar bazarının vəziyyəti tələb etdiyi digər hallarda müvafiq tədbirlər görə, o cümlədən həmin xarici qiymətli kağızların tədavülünü dayandıra bilər. QKDK Azərbaycan Respublikasının ərazisində xarici qiymətli kağızların tədavülünü dayandırdıqda bu barədə xarici qiymətli kağızların emitentinə və ya sahibinə yazılı surətdə məlumat təqdim edir və bu barədə kütləvi informasiya vasitələrində müvafiq elan verir.

5. Məsuliyyət

5.1. Bu Qaydalara riayət etməyən şəxslər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

6.Qüvvəyə minməsi

6.1. Bu Qaydalar təsdiq edildiyi gündən qüvvəyə minir.

Forma № 1

Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi

State Committee for Securities under the auspices of the President of Azerbaijan

## Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasının ərazisində tədavülə buraxılması haqqında

## Ş Ə H A D Ə T N A M Ə №

Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi________________________________________________________________

(qeydiyyat orqanının tam adı və ünvanı)

________________________________________________________________________

tərəfindən qeydə alınmış_____________________________________________________________

________________________________________________________________________

(qiymətli kağızların emitentinin/sahibinin tam adı və rekvizitləri)

________________________________________________________________________

məxsus olan qiymətli kağızların Azərbaycan Respublikasının ərazisində tədavülə buraxılmasına icazə verir.

**Tədavülə buraxılan qiymətli kağızların təsviri**

Növü:____________________________________________________________

Forması:_________________________________________________________

Qiymətli kağızların emitenti:_______________________________________

Sayı:_____________________________________________________________

Nominal:__________________________________________________________

Ümumi məbləğ:_____________________________________________________

Əlavə qeydlər:_____________________________________________________

Tarix: "____"_________200 –ci il

Sədr H.Babayev

M.Y.